

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 43 (21.195)

3 mart 2015-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 2-də Böyük Britaniya Baş nazirinin Azərbaycan, Qazaxıstan və Türkmənistan ölkələrində ticarət məsələləri üzrə elçisi Çarls Hendrini qəbul edib.

Çarls Hendri bildirdi ki, Azərbaycana səfərinin əsas məqsədi Prezident İlham Əliyevin təşəbbüsü ilə "Azərbaycan Respublikasının Hökuməti ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Hökuməti arasında iqtisadi və ticarət əməkdaşlığı haqqında" Anlaşma Memorandumu imzalamaqdır.

Dövlətimizin başçısı Azərbaycan ilə Böyük Britaniya arasında təkcə enerji sektorunda deyil, iqtisadi, ticarət, investisiya və digər sahələrdə əməkdaşlığın inkişaf etdirilməsinin önəmini vurğuladı. Prezident İlham Əliyev daha çox sayda Britaniya şirkətlərinin Azərbaycanda fəaliyyət göstərməsində də ölkəmizin maraqlı olduğunu dedi. Dövlətimizin başçısı Çarls Hendrinin bu istiqamətdə əlaqələrimizin genişləndirilməsi işinə verdiyi töhfəni yüksək qiymətləndirdi.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 2-də Avropa Şurası Parlament Assambleyasının Monitorinq Komitəsinin həmməruzəçisi Pedro Aqramuntun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

## Naxçıvanda muzeylər ziyarət olunmuşdur

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 19 dekabr tarixli "Muzeylərlə əlaqələrin daha da gücləndirilməsi haqqında" Sərəncamına uyğun olaraq, muxtar respublikada dövlət orqanları işçilərinin muzeylərə kollektiv gedişi təmin olunmuşdur. Bu tədbirlərin həyata keçirilməsi muzeylərə marağın artmasına, tariximizin, mədəniyyətimizin hərtərəfli öyrənilməsinə və təbliğinə şərait yaradır.

Fevralın 28-də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzinin kollektivləri Dövlət Bayrağı Muzeyində olmuşlar.

Məlumat verilmişdir ki, Dövlət Bayrağı Meydanı və Muzeyi Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 22 avqust tarixli Sərəncamına əsasən yaradılmış və 2014-cü il noyabrın 17-dən fəaliyyətə başlamışdır. Muzeydə Naxçıvanda müxtəlif dövrlərdə qəbul edilmiş bayraqlar və dövlət atributları nümayiş etdirilir. Azərbaycan Xalq Cümhuriyyəti dövründə təsis edilmiş üçrəngli bayrağımız ikinci dəfə ulu öndər Heydər Əliyev tərəfindən 1990-cı il noyabrın 17-də Naxçıvanda qaldırılmışdır. Muzeydə həmin illərdə qəbul olunmuş tarixi qərarlar, Azərbaycan Respublikasının Dövlət Bayrağı və digər dövlət atributları haqqında ətraflı məlumatlar yerləşdirilmişdir. Bildirilmişdir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2014-cü il 17 noyabr tarixli Sərəncamı ilə hər il noyabr ayının 17-si "Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı Günü" kimi qeyd edilir.

Ziyarətçilərə ekspozisiyadakı qədim dövlətlərin bərpa olunmuş bayraqları, gerbləri və inzibati xəritələri, Naxçıvan xanlığının süvari dəstələrinə verilən bayraqlar, döyüşçü libasları, Naxçıvan Muxtar respublikasının müxtəlif illərdə qəbul olunmuş dövlət rəmzləri və konstitusiyaları haqqında ətraflı məlumat verilmişdir.

Həmin gün Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti və Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin kollektivləri də Dövlət Bayrağı Muzeyində olmuşlar. Naxçıvan Muxtar Respublikası Prokurorluğunun, Milli Təhlükəsizlik və Daxili İşlər nazirliklərinin kollektivləri Heydər Əliyev Muzeyində, Ədliyyə və Fövqəladə Hallar nazirliklərinin, Dövlət Gömrük Komitəsinin əməkdaşları Açıq Səma Altında Muzeydə, İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) Aparatının, Maliyyə və Vergilər nazirliklərinin əməkdaşları "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində, İqtisadiyyat və Sənaye, Nəqliyyat, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərinin əməkdaşları Naxçıvan Dövlət Xalça Muzeyində, Rabitə və Yeni Texnologiyalar, Kənd Təsərrüfatı və Səhiyyə nazirliklərinin kollektivləri "Xan Sarayı" Dövlət Tarix-Memarlıq Muzeyində, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin əməkdaşları Naxçıvan Dövlət Tarix Muzeyində, Təhsil, Mədəniyyət və Turizm, Gənclər və İdman nazirliklərinin əməkdaşları Ədəbiyyat Muzeyində olmuşlar.

Şəhər və rayon İcra hakimiyyətlərinin, eləcə də muxtar respublika mərkəzi icra hakimiyyəti orqanlarının şəhər və rayonlardakı idarə, müəssisə və təşkilatlarının əməkdaşları da müvafiq olaraq rayon mərkəzlərində fəaliyyət göstərən Tarix-Diyarşünaslıq və digər muzeyləri ziyarət etmişlər.

"Şərq qapısı"

## Müşavirədə qarşıya qoyulan vəzifələrin icrası istiqamətində ciddi tədbirlər görülür

*21 fevral 2015-ci il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisində bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti və qarşıda duran vəzifələr mövzusunda keçirilən müşavirədə verilən tapşırıqların icrası ilə bağlı Ordubad Rayon İcra Hakimiyyətində yığıncaq keçirilib.*

Tədbirdə rayon Təhsil Şöbəsinin müdiri Samir Zeynalovun, Gənclər və İdman İdarəsinin rəis əvəzi Əbülfəz Əliyevin, Şahmat məktəbinin direktoru İsrafil Məmmədovun Ordubad rayonunda idmanın kütləviliyinə nail olmaq məqsədilə həyata keçirilmiş tədbirlər barədə məlumatları dinlənilib.

Naxçıvan Muxtar Respublikasının Təhsil naziri Piri Nağıyev, Gənclər və İdman naziri Azad Cabbarov çıxış edərək muxtar respublikada bədən tərbiyəsi və idmanın inkişafına göstərilən qayğıdan danışıblar. Bildirilib ki, belə qayğıdan Ordubad rayonuna da xeyli pay düşüb. Qarşıda duran başlıca vəzifə ondan ibarətdir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisində keçirilən müşavirədə səsləndirilmiş nöqsanlar tezliklə aradan qaldırılsın.

Ordubad Rayon İcra Hakimiyyətinin başçısı Elşad Məmmədov bildirib ki, son illər Ordubad rayonunda tikilən, yaxud yenidən qurulan yeni məktəb binalarında müasir idman zallarının, sədatipli idman qurğularının, hərtərəfli şəraitə malik Şahmat məktəbinin istifadəyə verilməsi idmanın inkişafına başlıca stimul olub. Bu gün rayon Uşaq-gənclər idman məktəbində 38 qrupda 540 nəfər (onlardan 68-i qız), Şahmat məktəbində 34 qrupda 330 nəfər (onlardan 146-sı qız) idmanla məşğul olur.

Ümumilikdə, rayonda fəaliyyət göstərən idman bölmələrində 628 nəfər qız olmaqla, 3500 nəfərə yaxın yeniyetmə və gənc (onlardan 5 nəfər sağlamlıq imkanları məhdud gənc) idmanın futbol, yüngül atletika, şahmat, voleybol, basketbol, boks, karate-do, yunan-Roma güləşi, stolüstü tennis və dama növləri ilə məşğul olurlar.

29 idman zalı, 1 Şahmat məktəbi, 1 mini-futbol meydançası, 1 stadion, 103 sadə idman qurğusu yeniyetmə və gənclərimizin istifadəsindədir. Ümumilikdə, 41 nəfər fiziki tərbiyə və idman müəllimi rayonun tam orta və Uşaq-gənclər idman məktəblərində böyüməkdə olan gənc nəslə idmanın incəliklərini və sirlərini öyrətməkdədir.

Vurğulanıb ki, rayonun müxtəlif idman növləri üzrə yığma komandaları Naxçıvan Muxtar Respublika çempionatında, birincilik, kubok və turnir yarışlarında çıxış edib, muxtar respublika qalibi kimi Azərbaycan birinciliklərində uğurlara imza atıblar. "Cəsurlar" hərbi-idman və turizm, "Şahin" və "Sərhəd" hərbi-idman oyunları, "Vətənin müdafiəsinə hazıram" çoxnövçülüyü, yeniyetmələrdən ibarət basketbol, karate-do, yüngül atletika və şahmat komandaları dəfələrlə muxtar respublika birinciliklərində mükafata layiq yerlər tutublar. 2013-cü ilin aprel ayında İsmayıllı rayonunda keçirilən "Vətənin müdafiəsinə hazıram" çoxnövçülüyü üzrə Azərbaycan birinciliyində rayonumuzun komandası ikinci yerə, "Cəsurlar", "Sərhəd" hərbi-idman oyunu komandaları üçüncü-dördüncü yerlərə layiq görülərək mükafatlandırılıblar.

Qeyd olunub ki, şahmatın inkişaf etdirilməsi məqsədilə rayonda müasir üslubda Şahmat məktəbi tikilib, ümumtəhsil məktəblərində şahmatın tədrisi üçün şərait yaradılıb. Həyata keçirilən tədbirlər nəticəsində ordubadlı şahmatçılardan 14 yaşlılar arasında Kamil Rzayev, 16 yaşlılar arasında Aydın İsmayılov, 8 yaşlılar arasında Hüseyn Seyid və Zərrin Məmmədli muxtar respublika yarışlarında mükafatçılar arasında yer alıblar. 2014-cü ildə Şəmkir rayonunda keçirilən Azərbaycan çempionatının seçmə turnirində 8 yaşlılar arasında Hüseyn Seyid ikinci yer, qızlar arasında Zərrin Məmmədli üçüncü yer tutaraq diploma layiq görülüblər.

İcra başçısı bildirib ki, görülmüş işlərlə yanaşı, nöqsanlar da mövcuddur. Belə ki, rayon mərkəzində və kənd yaşayış məntəqələrindəki yeni məktəb binalarında müasir idman zallarının və sədatipli idman qurğularının istifadəyə verilməsinə baxmayaraq, hələ də idmanın kütləviliyinə tam nail olunmayıb, federasiyaların rayon şöbələri işlərini günün tələbləri səviyyəsində qura bilməyiblər. Rayonun ucqar kəndlərində yaşayan idmançılar keçirilən idman yarışlarına, demək olar ki, cəlb edilmirlər. Qızların idmana cəlbi də çox zəifdir. Ümumtəhsil məktəblərində fiziki tərbiyə dərsləri tam keyfiyyətlə keçilmir və ya bəzi idman müəllimlərinin peşəkarlıq səviyyəsi aşağı olduğundan idmanın sirləri yeniyetmə və gənclərə yetərincə öyrədilmir. Unutmaq olmaz ki, idmanın kütləviliyinə nail olmaq üçün Uşaq-gənclər idman və Şahmat məktəblərinin üzərinə böyük məsuliyyət düşür. Rayon Təhsil Şöbəsi ümumtəhsil məktəblərində, Uşaq-gənclər idman və Şahmat məktəblərində işləyən fiziki tərbiyə və məşqçi müəllimlərin peşəkarlıq səviyyələrinin artırılmasına ciddi fikir verməlidir.

Muxtar MƏMMƏDOV

*Bu gün ümumtəhsil səviyyəsində şagirdlərə zəruri biliklər, dövlət və cəmiyyət qarşısında hüquq və vəzifələri aşılamağa çalışan müəllimlər dövlət təhsil standartlarına uyğun bilik, bacarıq və vərdişlərə malik olmalı, təhsil proqramlarına uyğun ixtisas və elmi-pedaqoji səviyyələrini yüksəltməlidirlər.*

## Müəllimlərin attestasiyasına başlanılıb



Martın 1-də müəllimlərin peşəkarlıq səviyyəsinin artırılması, əlavə təlim ehtiyaclarının müəyyənləşdirilməsi, müəllimlik fəaliyyətinin stimullaşdırılması və müəllimlərin əməyinin qiymətləndirilməsinin təmin olunması məqsədilə Naxçıvan Muxtar Respublikasının ümumtəhsil məktəblərində çalışan "Azərbaycan dili və ədəbiyyat" fənnini tədris edən müəllimlərin attestasiyası keçirilib. Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidmətindən bildiriblər ki, bu fənn üzrə attestasiya imtahanında muxtar respublika üzrə 996 müəllim iştirak edib.

Məlumat üçün bildirək ki, attestasiya imtahanları Naxçıvan şəhər 14 nömrəli tam orta məktəbdə, Şərur şəhər 2 nömrəli tam orta məktəbdə, Babək rayon Babək qəsəbə tam orta məktəbində, Culfa şəhər 3 nömrəli tam orta məktəbdə, Ordubad rayon internat məktəbində, Şahbuz rayon 1 nömrəli tam orta məktəbdə, Kəngərli rayon Qıvraq qəsəbə tam orta məktəbində və Sədərək rayon Heydərabad qəsəbə tam orta məktəbində keçirilib.

İki saat müddətində yazılı test formasında keçirilən attestasiyada müəllimlərə 80 sual (40 ixtisas, 25 metodika və 15 informasiya-kommunikasiya texnologiyaları) təqdim olunub.

Bu gün isə "tarix" fənnini tədris edən müəllimlər üçün attestasiya imtahanı keçiriləcək.

Xəbərlər şöbəsi

***Naxçıvan torpağı onu yaxın-uzaq ellərdə tanıdan, namını hər yerə yayan qədim yurd yerləri ilə zəngindir. Sivilizasiyaların intibahı, mədəniyyətlərin qovuşma yeri kimi Naxçıvanda şəhər mədəniyyətinin yaranması və genişlənməsi bir sıra tarixi dövrlərdə özünün ən yüksək mərhələsinə çatmışdır. Naxçıvan şəhərindən, təqribən, 40 kilometr şimal-qərbdə yerləşən qədim Qarabağlar kəndi də özünün yeni növrağına qovuşaraq zamanın dərin qatlarından gələn şəhər həyatına yenidən qayıtmaqdadır.***

*Şəhərləşən kəndlərimiz*

# Qarabağlar



Naxçıvanın və Qarabağların qədim şəhər mədəniyyəti haqqında zəngin tarixi mənbələr vardır. Əlbəttə, "Qarabağlar" deyəndə dövrümüzə qədər qalmış məşhur "Qarabağlar" türbəsi yada düşür. XVII əsrdə yaşamış türk səyyahı Övliya Çələbi "Səyahətnamə" əsərində bu kəndin o dövrdə 50 min nəfərin yaşadığı, 10 min evin, 70 məscidin, 40 minarənin olduğu, karvansara, hamam, bazar və sair kimi tipik orta əsr şəhər həyatını, o dövrə görə böyük bir şəhəri təsvir etmişdir. Qarabağların qədim Roma və Bizans imperiyaları ilə iqtisadi-mədəni əlaqələrini sübut edən tapıntılar onun bu coğrafiyadakı tarixi əhəmiyyətini bir daha ortaya qoyur. Bundan əlavə, orta əsrlərdə Qarabağların da Təbriz, Səmərqənd, Bağdad şəhərləri ilə birlikdə elm, mədəniyyət, təhsil mərkəzləri kimi şöhrət qazanması bizə qədər gəlib çatmış bilgilər arasındadır. Deyilənlərə görə, qədim Qarabağların ərazisi indiki Tənənəm kəndinə qədər imiş. Həmin dövrlərdə Qarabağlar mədrəsələrində riyaziyyat, nücum elmləri öyrədilmişdir. Tarixən kənddə məskunlaşmış türk tayfalarının nişanələri də bu gün Qarabağların əsas məhəllələrinin adlarında yaşadılmaqdadır. Süleymanlı, Bəydilli, Ağahəsənli, Cığallı, Əlmədədli, Turabxanlı, Hacı Baxşəlilər məhəllələrinin sakinləri qədimdə burada məskən salmış ulu babalarının isti ocağının hənirtisini sönməyə qoymayan, torpağına bağlı insanlardır.

Bu gün Qarabağlar kəndinin quruculuq meydanına çevrilərək yenidən şəhər olmağa doğru irəliləyişində muxtar respublikada kəndlərin inkişafına verilən dəstək mühüm əhəmiyyət kəsb edir.

Geniş əraziyə malik Qarabağlar kəndində hazırda 7 min nəfərdən çox sakinin yaşadığı 1226 ev vardır. Kəndin suvarılan əkin sahəsi 850 hektardır. Əhalisinin əsas məşğuliyyəti heyvandarlıq və əkinçilikdir. Daha çox mal-qara saxlayan 20-yə yaxın iri fermer təsərrüfatı vardır. Son illərdə Qarabağlarda 40-dan çox yeni ev tikilmişdir. Kənd ərazisindəki 40-dan artıq kəhriz, 18 bulaq və çox sayda artezian quyusu burada əkinlərin suvarılması və əhalinin içməli su ilə təmin olunmasında mühüm rol oynayır. Qarabağlarda su deyərkən Asnı bulağının adı ilk olaraq çəkilir. Bu kəndin camaatı üçün "Asnı" adı həm də müqəddəs olan bir ziyarətgahın adıdır. Qarabağlar və ətraf bölgələr üçün xarakterik olan quraqlıq dövrlərində belə, bu bulağın suyu həyat mənbəyi olmuş, hazırda isə



burada çox sayda işçinin çalışdığı forel balığı yetişdirilməsi üzrə balıqyetişdirmə müəssisəsi fəaliyyət göstərir. Hazırda Qarabağların yuxarı hissəsində bu kəndə və əlavə 5 kəndə içməli su verəcək böyük bir su anbarı tikilməkdədir. İnşa olunan içməli su xətti gələcəkdə qarabağlarlıların keyfiyyətli içməli su ilə təminatını yaxşılaşdıracaqdır.

Kənddəki iş imkanlarına gəldikdə, kənd sakinləri buradakı xidmət və ticarət obyektləri ilə yanaşı, broyler müəssisəsində, lavaş sexləri, plastik qapı-pəncərə sexi və dəyirmanda öz məşğulluqlarını təmin edirlər. Qarabağlar daş məhsulları istehsalı isə bu kəndin əsas qazanc qapısı sayılır. Burada istehsal olunan daş məhsulları bu gün muxtar respublikamızda geniş vüsət almış quruculuq işlərində keyfiyyətli bəzək elementi kimi istifadə olunur, ölkəmizdən xaricə ixrac edilir.

Qarabağlar kəndi tarixən öz təhsil ənənələri ilə seçilmişdir. Bu kənddən qarşısına müəllim olmaq məqsədi qoymuş yüzlərlə maarif və mədəniyyət işçisi yetişmişdir. Ümumiyyətlə isə bu kəndin yetirməsi olmuş 45-dən çox elm xadimi müxtəlif vəzifələrdə xalqımızın maariflənməsinə xidmət etmişdir. Hazırda Qarabağlarda fəaliyyət göstərən iki tam orta məktəbdən 2014-cü ildə 71 nəfər məzun olmuş, lakin onların cəmi 25 nəfəri ali məktəblərə qəbul olunmuşdur. Bu məzunlardan yalnız 4 nəfər 500-700 bal arası nəticə göstərmişdir.

Kəngərli rayonunun ən böyük yaşayış məntəqəsi olan Qarabağlara göstərilən böyük dövlət qayğısı kəndi şəhər mədəniyyətinə qovuşdurmuşdur. Hələ 2009-cu ildə burada inşa olunmuş kənd mərkəzi qarabağlarlılara bütün müasir xidmətlərin göstərilməsinə



imkan yaradır. Həmin il öz müasir görkəminə qovuşmuş 522 yerlik 2 nömrəli və 2014-cü ildə əsaslı təmirdən sonra istifadəyə verilmiş 648 yerlik 1 nömrəli tam orta məktəblər, 2010-cu ildə istifadəyə verilmiş həkim ambulatoriyası kəndin simasına əsl şəhər yaraşığı verir. 2012-ci ildə istifadəyə verilmiş müasir Qıvraq-Qarabağlar-Çalxanqala-Təzəkənd dairəvi avtomobil yolu insanların rahatlığını təmin etmişdir. Belə bir rahat yol infrastrukturu təkcə 7 min nəfərdən artıq əhalisi olan Qarabağların deyil, ətraf kəndlərin də Naxçıvan şəhəri və rayon mərkəzi arasında rahat nəqliyyat marşrutlarının yaradılmasına imkan verir. Qarabağlarda mövcud olan 500-dən artıq fərdi minik avtomobili və taksilər əhaliyə nəqliyyat xidmətləri göstərir.

Müasirləşmə yolunda mühüm işlər görülmüş Qarabağlarda sosial həyat öz axarı ilə davam edir. Kənddə əhaliyə rabitə, bankomat, aptek xidmətləri göstərilməsi, enerji və təbii qaz infrastrukturunun tamamilə yenilənməsi əhalinin rifahına müsbət təsir edən amillərdəndir. Son illərdə kənddə ikimərtəbəli villatipli evlərin sayı artmaqda, hər il kənddə yeni evlərin tikintisi ilə bərabər, əsaslı təmir işləri də vüsət almaqdadır. Qarabağların yerli xammalı olan üzlük daş plitələr və yüksəkkeyfiyyətli Naxçıvan sementi buna imkan yaradır. Kənddə sayı 30-dan çox olan belə villatipli evlərin buraya turist kimi gələn qonaqlara da kirayə veriləbiləcəyi mümkündür. Kənddəki qədim tarixmədəniyyət abidələri ilə tanış olmaq istəyən belə turistlərin ölkə mənşəyi isə Britaniyadan tutmuş Hindistana qədər genişdir.

***Qədim Qarabağlar öz inkişafının yeni bir mərhələsindədir. Bu yazının ərsəyə gəlməsində öz qiymətli fikirlərini bizimlə bölüşən kənd ağsaqqalı Nahas Səfərov bizimlə söhbətində Azərbaycanın qədim tarixində və muxtar respublikamızın bugünkü intibahında mühüm rol oynayan qarabağlarlıların dövlətimizə həmişə minnətdar olduğunu hər kəlməsində vurğulayırdı. Səksən yaşlı ağsaqqalın gənclik şövqü ilə canlandırdığı xatirələrindən Qarabağlara, onun torpağının, suyunun bərəkətinə, ağbirçəyin, ağsaqqalın hörmətində duran cavanlarına, Vətənin müdafiəsində canından keçmiş şəhidlərinə, kəndin quruculuq meydanında tər tökən zəhmətkeş insanlarına süzülən sevgi ilə kənddən ayrılırıq.***

**Əli CABBAROV**

***"Rusiya qəzeti"ndə ("Rossiyskaya qazeta") müəllifi Qaliyə Əliyeva olan "Əcəmi Naxçıvani məktəbinin dərsləri" sərlövhəli məqalə dərc olunmuşdur. Məqalədə memar Əcəmi Naxçıvaninin əzəmətli əsəri – Möminə xatın məqbərəsi, o cümlədən bu diyarın bənzərsiz tarix-mədəniyyət abidələrindən danışılır. "Əcəmi Naxçıvani məktəbinin dərsləri" məqaləsinin tərcüməsini oxuculara təqdim edirik.***

# Əcəmi Naxçıvani məktəbinin dərsləri

## *Burada hər bir daş xalqın mədəniyyətini, onun adət-ənənələrini təcəssüm etdirir*

Naxçıvan Ön Şərqdə, o cümlədən Azərbaycanda sivilizasiyanın inkişafının şəksiz ocaqlarından biridir. Maddi-mədəniyyət abidələri, Gəmiqayanın qayaüstü təsvirləri və petroqlifləri, arxeoloqlar tərəfindən qalalarda və qədim şəhər yerlərində aşkar edilmiş çoxlu miqdarda artefaktlar, habelə ən qədim yerüstü tikililər mütəxəssislərə bu diyarın özünəməxsus və bənzərsiz mədəniyyətə malik olduğu haqqında danışmağa imkan verir.

Bu gün Naxçıvanda 1500-dən artıq tarixi mədəniyyət abidəsi vardır ki, bunlardan da 60-a yaxını dünya əhəmiyyətlidir. Qazma, Əshabi-Kəhf və Kilid mağaralarında Daş dövrünün izləri qalmaqdadır. Naxçıvanın ərazisindəki Oğlanqala, Qarabağlar, Çalxanqala və Govurqala kimi qala-şəhərlərin əsası hələ eradan əvvəl IV minilliyin sonlarında – II minilliyin əvvəllərində qoyulmuşdur. Gəmiqayanın qayaüstü şəkilləri kimi təsviri incəsənət abidələri burada yaşamış qədim tayfaların həyat tərzi və dini-ideoloji dünyagörüşünü əks etdirir.

Bəzən də Naxçıvanın Tac-Mahalı adlandırılan abidə – memar Əcəmi Naxçıvaninin möhtəşəm əsəri olan Möminə xatın türbəsi özünün əzəməti ilə insanları heyran edir. Bənzər tikililər arasında Möminə xatın türbəsi təkcə Azərbaycanda deyil, həm də bütün dünyada ən zərif və təmtəraqlı abidələrdən biri sayılır. Türbə 1186-cı ildə Naxçıvan Atabəylər dövlətinin banisi Şəmsəddin Eldənizin arvadı Möminə xatının qəbri üzərində ucaldılmışdır.

Diyarın tarixi-memarlıq abidələrinin bərpası və rekonstruksiyası üzrə aparılan işlər Azərbaycan müstəqillik qazandıqdan sonra məhz ümummilli lider Heydər Əliyevin sayəsində geniş vüsət aldı. Misal üçün, 1998-ci ildə təbii mağarada yerləşən "Əshabi-Kəhf" dini-mədəni abidələr kompleksinə qədər asfalt yol çəkildi, onun ətrafında ağaclar əkildi, orada məscid tikildi. Dünyanın bir çox ölkələrindən zəvvarlar və turistlər indi buranı ziyarət etməyə gəlirlər.

2004-cü ildə XVI-XVIII əsrlərə aid ibadət abidəsi – İmamzadə kompleksi ilkin şəklində təmir və bərpa edildi. Keçən əsrin 20-ci illərində Naxçıvanda olmuş rus alimi V.M.Sısoyevin məlumatlarına görə, orta əsrlərdə bu kompleksin dərvişlərin yaşayış və ibadət məskəni, sonralar isə Naxçıvan xanlarının dəfn yeri olduğu güman edilir.

Naxçıvanda Nuh Peyğəmbərin qəbri ilə bağlı çoxlu sayda əfsanələr mövcuddur. Rəvayətə görə, Dünya Tufanı zamanı Nuh Peyğəmbərin gəmisi Naxçıvan ərazisindəki İlanlı dağa toxunmuş və Qapıcıq zirvəsinin ətəkləri yaxınlığında lövbər salmışdır. Keçmişin tanınmış tədqiqatçılarından İ.Şopen, Dyubya de Monpere, K.A.Nikitin, V.M.Sısoyev və başqaları da Nuhun qəbrinin şəhərdə olmasına dair dəlillər göstərmişlər. 2008-ci ildə Naxçıvan Muxtar Respublikası rəhbərliyinin sərəncamı ilə bu qədim abidə yenidən bərpa edilmiş, ətraf ərazi abadlaşdırılmışdır.

Naxçıvan arxeoloji məktəbinin Azərbaycanın tarix elminin ümumi tədqiqat kontekstindəki xüsusi rolu və töhfəsindən danışarkən mütəxəssislər belə bir ümumi rəyə gəlirlər ki, Naxçıvan artıq XII əsrdə zəngin memarlıq-tikinti ənənələrini özündə birləşdirən ən iri orta əsrlər memarlıq məktəblərindən birinin mərkəzi idi. Şübhəsiz, görkəmli memar Əcəmi Naxçıvaninin yaradıcılığını bu məktəbin zirvəsi hesab etmək lazımdır.

Təkcə Naxçıvanda deyil, həm də bütövlükdə Kür-Araz mədəniyyəti məkanında etalon abidələrdən biri kimi tanınan I Kültəpə yaşayış yeri, eləcə də Maxta, Ovçular təpəsi, Daşarx, Qarabulaq və digər kurqanlarda son zamanlar aparılmış arxeoloji qazıntıların verdiyi zəngin materiallarda vaxtilə bu regionda məskunlaşmış qədim tayfaların yaşayışının bütün yönlərinin və nəinki ətraf vilayətlərlə, həm də uzaq ölkələrlə əlaqələrinin izlərini tapmaq olur. Azərbaycan Prezidenti yanında Elmə Dəstək Fondunun maliyyə köməyi ilə I Kültəpə yaxınlığında və Şorsu gölü hövzəsində tədqiqatlar aparan zaman 20-dən artıq çox mühüm artefakt – Neolit və Eneolit dövrünə aid arxeoloji abidələr aşkar edilmişdir.

Yeri gəlmişkən, dövlət tərəfindən qazıntı aparmağa iki milyon da məhz Naxçıvandakı tədqiqatlar üçün ayrılmışdır. Təsadüfi deyil ki, bu gün çöl şəraitində daimi fəaliyyət göstərən 40 arxeoloji ekspedisiyadan 10-a yaxını Naxçıvandadır. Diyarın bütün arxeoloji abidələrinin pasportlaşdırılması isə düz 10 il bundan əvvəl, 2005-ci ildə həyata keçirilmişdir.

**Qaliyə ƏLİYEVA**
***"Rusiya qəzeti"***

# Oxucu məktubları

## Razılıq

### Yerli və ekoloji cəhətdən sağlam tərəvəz məhsullarına olan tələbat qış aylarında da ödənilir



Hələ sovet dönəmində muxtar respublikanın bəzi kənd yaşayış məntəqələrində istifadə olunan istixanaları görmüşəm. Belə istixanalar barmaqla sayılası idi. Primitiv qaydada düzəldilmiş həmin istixanalarda ancaq şitil yetişdirilirdi. Vaxt çatanda şitillər sahələrə köçürülürdü. Bu da müxtəlif tərəvəz məhsullarının bazara bir qədər tez çıxarılmasına imkan verirdi. Bunu xatırlamaqda məqsədim bu gün muxtar respublikamızda yaradılan şərait hesabına fəaliyyət göstərən istixanaların kənd təsərrüfatının inkişafında böyük əhəmiyyətini göstərməkdir. Əgər kustar üsullarla hər kənddə bir-iki nəfərə məxsus istixanalarda ancaq şitil yetişdirmək mümkün idisə, bu gün müasir texnologiyalar əsasında qurulan istixanalarda təkcə tərəvəz deyil, bəzi digər əkinçilik məhsulları da yetişdirilir.

İstixanalarda yetişdirilən məhsulların üstünlüyü ondadır ki, ekoloji cəhətdən təmizdir və muxtar respublikaya digər yerlərdən gətirilən, baha qiymətə başa gələn, genefondu bilinməyən tərəvəz məhsullarının qarşısını alır. Ekoloji cəhətdən sağlam məhsul isə insan sağlamlığı üçün başlıca şərtlərdən biridir.

Sözümün canı ondadır ki, hər həftə bir-iki dəfə bazara üz tuturam. Bu qışda da belə olub. Bazara girirsən, piştaxtalara baxanda gözlərinə inana bilmirsən ki, bu həcmdə tərəvəz məhsullarının hamısı öz diyarımızda yetişdirilib. Hər birinin öz ətri, öz tamı var. Həmin məhsulları alanda da bilirsən ki, nəyə pul xərcləyirsən.

Biz şəhər sakinləri ilin qış fəslində də istixanalarda yetişdirilmiş təzə tərəvəz məhsulları almaq imkanı qazandığımız üçün həm məhsul yetişdirənlərə, həm də bu şəraiti yaradan dövlətimizə minnətdarlığımızı bildiririk.

**Əmanət MUSAYEVA**
***Naxçıvan şəhər sakini, müəllim***

## Təəssürat

### Naxçıvanda islami dəyərlərə böyük önəm verilir

***Hörmətli redaksiya!*** Bu məktubu sizə Azərbaycanın zəngin və qədim tarixə malik olan Şəki şəhərindən yazıram. 63 yaşım var. İxtisasca "rus dili və ədəbiyyatı" müəllimi olduğuma görə uzun illər Şəki rayonunun müxtəlif məktəblərində bu fənni tədris etmişəm. Hazırda təqaüdçüyəm və Şəkidə yaşayıram. Bu məktubu sizə yazmağıma əsas səbəb ömrümdə heç vaxt olmadığım Naxçıvanda bu yaxınlarda gördüklərim və gördüklərimdən qaynaqlanan təəssüratlar oldu.



Deməli, bu il fevral ayının əvvəllərində vaxtilə Bakıda tanış olduğum bir şəxsin yaxın ailə üzvlərindən birinin rəhmətə getməsi ilə əlaqədar Naxçıvana yas məclisinə gəlmişdim. Mərhumun yas məclisi Naxçıvan şəhərində idi. Tanışım – ev sahibi ilə birgə iki gün həmin mərasimdə olduq. Bəri başdan deyim ki, yas mərasimi ilə bağlı burada yaradılmış şərait, eyni zamanda məclisin idarə olunması məni çox razı saldı. Belə ki, orada yerli camaatla söhbətlərdən, eyni zamanda məni maraqlandıran suallara verilən cavablardan öyrəndim ki, indi şəhərin mərkəzində və digər məhəllələrdə, eləcə də rayon mərkəzlərində və kəndlərdə bu cür şəraiti olan zallar var. Yas məclislərində rəhmətə gedənin kimliyindən asılı olmayaraq, ehsan üçün yalnız çay, qənd, xurma və limon qoyulur. Onu da deyim ki, burada məclisi idarə edənlər yalnız dövlətin dini qurumunda qeydiyyatdan keçmiş şəxslərdir. Hamısı da məclislərdə xüsusi qəbul edilmiş geyimlərdə oturur. Naxçıvanda xoşuma gələn digər bir adət o oldu ki, şəhərdə yas mərasimi yerlərinə tanısa da, tanımasa da hamı gedir. Bu, məncə, Naxçıvan bölgəsinə xas milli dəyərdir. Mən də tanışımla birgə digər məclislərdə də oldum. Eyni şəraiti, eyni qayda-qanunu buralarda da gördük. Naxçıvanın hər yerində yas mərasimi üçün bu cür zalların yaradılaraq camaatın ixtiyarına verilməsi, üstəgəl, bütün bu kimi yerlərdə islam qaydalarına riayət edilməsi məni, yaxşı mənada, çox təsirləndirdi.

Elə Naxçıvanda olarkən öyrəndim ki, burada hər gün böyük tirajla nəşr edilən "Şərq qapısı" qəzeti var. Ona görə də bu məktubu sizin qəzetə yazaraq təəssüratlarımı oxucularla bölüşmək istədim. Məktubun dərci üçün irəlicədən hər kəsə təşəkkür edirəm.

**Kamal EYVAZOV**
***Şəki şəhəri, təqaüdçü-müəllim***

## Minnətdarlıq

### Məktəblərlə muzeylər arasında canlı dərsin təşkili mütərəqqi hadisədir

***Hörmətli redaksiya!***

Belə ifadə etmək mümkünsə, məni sizə məktub yazmağa sövq edən muxtar respublikanın muzeyləri ilə məktəbimiz arasında qurulan distant əlaqələr və keçilən canlı dərslərin effektivliyidir. Muzeylərlə məktəbimiz arasında videobağlantı vasitəsilə əlaqə yaradılması 4 illik müəllimlik fəaliyyətimdə, mən deyərdim ki, ən əlamətdar və yaddaqalan hadisələrdəndir.

Distant təhsil istiqamətində muzeylərimizdən canlı dərslərin keçilməsi böyüməkdə olan nəslin vətənpərvər ruhda tərbiyəsi baxımından da mütərəqqi hadisədir. Məktəbimizin şagirdləri ötən müddətdə Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyi, Naxçıvan Dövlət Tarix Muzeyi, Naxçıvan Dövlət Xalça Muzeyi, "Xan Sarayı" Dövlət Tarix-Memarlıq Muzeyi, Hüseyn Cavidin ev-muzeyi, "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksi, Ədəbiyyat Muzeyi və digər mədəniyyət və təhsil müəssisələri ilə interaktiv əlaqə vasitəsilə açıq dərslərdə iştirak ediblər. Bu ayın 25-də Xocalı soyqırımının 23-cü ildönümü münasibətilə muxtar respublikanın 210 məktəbi ilə Naxçıvan şəhərindəki Xatirə Muzeyi arasında aparılan canlı dərsdə bizim məktəbin də şagirdlərinin iştirakı əlamətdar hadisə kimi yadda qaldı.

Bildiyiniz kimi, Kələki kəndi Ordubad rayonunun mərkəzindən 45 kilometr aralıdadır. Kənddə yeni məktəb binasının istifadəyə verilməsi, məktəbin ən müasir texnologiyalarla təchiz edilməsi biz müəllimlərin, şagirdlərin və onların valideynlərinin sevincinə səbəb olub. Çünki yeni məktəb binası yuxarı sinif şagirdlərini hər gün Kələkidən qonşu Unus kəndindəki məktəbə dərsə getmək zərurətindən azad eləyib, orta təhsil almaq üçün kənddən kənara getməyə ehtiyac qalmayıb. Bir sözlə, şagirdlə məktəb arasındakı məsafə yaxınlaşıb.



Bəli, görülən işlər sayəsində muzeylərimiz ilə məktəbimiz arasında aparılan canlı dərslər Naxçıvanın tarixinin, mədəniyyətinin, qan yaddaşımızın təbliğ olunduğu mədəniyyət müəssisələri ilə məktəbimiz arasındakı məsafəni aradan götürüb, uzaq yolu yaxın edib. Mən tarix müəllimiyəm və bir çox hallarda haqqında danışdığım mövzunu əyani vasitələrlə, tarixi sənədlərlə, fotoşəkillərlə şagirdlərə çatdırmaq ehtiyacı hiss edirdim. Bunun üçün muzeylərə getmək lazım gəlir; amma yolun uzaqlığı bu işi çətinləşdirirdi. Ancaq keçilən canlı dərslər vasitəsilə şagirdlərim mövzuları daha tez qavrayıblar və sözsüz ki, bu, mənim işimi çox asanlaşdırır.

Distant təhsilin biz müəllim və şagirdlər üçün ən əhəmiyyətli məqamlarından biri də bu olacaq ki, Naxçıvan şəhərindəki elektron lövhəli sinfi olan hər hansı bir məktəblə əlaqə saxlayıb dərs təşkil edəcəyik, şagirdlərimiz videobağlantı vasitəsilə keçilən dərsi dinləyə və müəllimlə birbaşa əlaqə saxlaya biləcəklər. Onu da qeyd edim ki, bu imkanlar Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq sərəncamından sonra yaradılıb, muxtar respublikanın digər təhsil ocaqları kimi, məktəbimizdə də elektron təhsilin tətbiqi genişləndirilib, virtual tədris mühiti formalaşdırılıb, tədrisin əyaniliyi və səmərəliliyi artırılıb. Bütün bu görülən işlərə görə muxtar respublika rəhbərinə minnətdarlığımızı bildiririk.

**Emin AĞAYEV**
***Ordubad rayon Kələki kənd tam orta məktəbinin müəllimi***

### Kommunal xərclərimi artıq internetlə ödəyirəm




***Hörmətli redaksiya!***

Mən təqaüdçüyəm. Naxçıvan şəhər sakini kimi yaşadığım mənzildə istifadə etdiyim elektrik, qaz və telefon haqlarını ödəmək üçün keçən ilə qədər hər ay poçta getməli olurdum. Əvvəlcə bu əməliyyatların internetlə də mümkün olduğunu eşitsəm də, bir az məlumatsızlığımdan və açığını desəm, köhnə ənənələrə bağlılığımdan buna fikir vermirdim. Bu ilin əvvəlindən bir təsadüf nəticəsində qonşumuzun oğlunun bildiriş verən işçi ilə söhbətindən bu ödəmələrin artıq internetlə nə qədər tez və rahat olduğunu eşitdim. Yolunu göstərməyi xahiş edəndə elə yanımdaca o, öz işıq pullarını internetlə ödəyərək mənə bunu izah etdi. Artıq iki aydır ki, mən də evimizdəki kompüterdən istifadə edərək bütün kommunal xərclərimi cəmisi beş dəqiqəyə ödəyirəm. Necə deyərlər, sürət və inkişaf dövründən geri qalmaq olmaz. Bizə bu şəraiti yaradan dövlətimizə öz dərin minnətdarlığımızı bildiririk.

**Yaqub NOVRUZOV**
***Naxçıvan şəhər sakini***

## Təklif

### Naxçıvanın tanınmış musiqi kollektivlərinin rayonumuzda konsert proqramlarına baxmaq arzusundayıq

***Naxçıvan tarixboyu özünün xalq yaradıcılığı, ədəbiyyatı, incəsənəti, mədəniyyəti ilə Azərbaycanın fəxri olub, dünya sivilizasiyasına çox dəyərli töhfələr verib. Qədim diyarımızda bu gün incəsənətimizin, mədəniyyətimizin inkişafı üçün böyük işlər görülür, bu sahələrdə atılan nümunəvi addımlar alqışlarla qarşılanır.***

Muxtar respublikamızda teatrın zəngin ənənələri qorunub saxlanılır, milli teatr sənətinin davamlı inkişafı təmin olunur. Təsadüfi deyil ki, bu gün Naxçıvan Dövlət Uşaq Teatrı ölkəmizdə fəaliyyət göstərən 2 uşaq teatrından biri kimi balaca tamaşaçıların sevimli ünvanına çevrilib. Həmçinin Naxçıvan Dövlət Uşaq Filarmoniyasının yaradılması da musiqi mədəniyyətimiz tarixində mühüm hadisədir. Bu, övladlarımızın musiqi mədəniyyətinin inkişafına əvəzsiz töhfədir.

Əgər yaddaşım məni aldatmırsa, Naxçıvan Dövlət Filarmoniyasının Estrada Orkestri də, təxminən, 3 il bundan əvvəl yaradılıb. Bu hadisə mədəniyyətimizin, incəsənətimizin inkişaf səviyyəsinin növbəti təzahürüdür. Səmimi deyirəm, bir vaxtlar mənə desəydilər ki, Naxçıvanda bu qədər yüksəksəviyyəli Estrada Orkestri yaradılacaq və uğurlu fəaliyyəti ilə insanlarımızın sevgisini qazanacaq, inanmazdım. Çünki o çətin dövrlərimizdə o qədər problemlərimiz var idi ki, bu sahə heç yada da düşməzdi. Ancaq son 20 ildə incəsənətimizin inkişafına göstərilən diqqət və qayğı bizi bu səviyyəyə yüksəltdi.



Bir sənətsevər kimi görürəm ki, ötən müddətdə Estrada Orkestrinə istedadlı gənc ifaçılar cəlb olunub. Kollektivə zövqoxşayan çox gözəl geyim dəstləri, musiqi alətləri verilib. Orkestrin ifaçıları Azərbaycan və xarici ölkə bəstəkarlarının mahnılarını heyranedici şəkildə məharətlə ifa edirlər. Bunları görəndə fəxarət hissi keçirirəm. Bütün bu inkişafı, görülən işləri sevinclə izləyirəm.

Muxtar respublikamızda insanlara göstərilən diqqət və qayğını, yerli əhalinin fikrinin fəaliyyətdə əsas alınmasını nəzərə alaraq təklif edirəm ki, Estrada Orkestrimizin və digər musiqi kollektivlərinin konsertləri təkcə Naxçıvan şəhərində deyil, həm də bizim rayonumuzda və digər rayon mərkəzlərində mütəmadi olaraq keçirilsin. Doğrudur, rayonumuzda fəaliyyət göstərən musiqi kollektivləri, xalq teatrı teztez konsert proqramları və tamaşalarla rayon ictimaiyyəti qarşısında çıxış edir. Amma Estrada Orkestri və digər professional musiqi kollektivlərinin konsertlərini də izləmək arzusundayıq. Ümid edirəm ki, mənim, mənim kimi onlarla sənətsevərin ürəyindən olan bu arzu da həyata keçiriləcəkdir.

**Növrəstə XUDİYEVA**
***Şahbuz şəhər sakini***

Novruza doğru

# Od çərşənbəsi

*Xalq təqvimindəki boz ayın dörd çərşənbəsi müqəddəs sayılmış və təbiətin dəyişməsində dörd ünsür – su, od, yel və torpaq mühüm rol oynamışdır. Xalq yaradıcılığında bu ayın dörd çərşənbəsinin hər biri ilə bağlı müxtəlif ayin, etiqad, inanc və mərasimlər mövcuddur. Boz ayın ikinci çərşənbəsi xalq arasında "Xəbər çərşənbə", "Külə çərşənbə" kimi də bilinən "Od çərşənbə"sidir. Buna xalq arasında bəzən "Üsgü çərşənbə", "İkinci çərşənbə" və yaxud əzizləmə mənasında "Addı çərşənbə" də deyilmişdir. İkinci çərşənbədə havaların isinməsi, yazın əlaməti olan bəzi çiçəklərin açması baş verir. Buna görədir ki, bu çərşənbə "Xəbər çərşənbə" də adlanır – yəni yazın xəbərçisi. Bu çərşənbədə havalar qızır, Günəş artıq yeri isitməyə başlayır. Naxçıvandan toplanmış etnoqrafik çöl materiallarına görə, bu çərşənbəyə həm də "Külə çərşənbə" deyilir. "Külə" sözü "tam olmayan, qısa" mənasını bildirir.*

Od çərşənbəsi əski görüşlərlə bağlı olub, Günəşə, oda, odu qoruyub saxlamaq inamına tapınma, od kultu ilə əlaqəli yaranmışdır. Hələ çox-çox əvvəllər insanlar təbiəti canlandıran, torpağı isidən Günəşi, onun yerdəki rəmzi odu təsəvvürlərində müqəddəsləşdirmişlər. Əski zamanlarda insanlarda belə bir inam yaranmışdır ki, onlar odu nə qədər əzizləsələr, oxşasalar, təbiət o qədər tez isinər, adamlara xoşbəxtlik gətirər.

Topladığımız etnoqrafik çöl materiallarına görə, Qarabağlar kəndində və Ordubadın bəzi kəndlərində hər çərşənbədə od yandırardılar. Gal kəndində od çərşənbəsində yandırılan odun külünü üç yerə səpər, mal-qaranı, qoyun-quzunu külün üzərindən keçirərdilər. İnanca görə, od çərşənbəsində yanan odun külünü kom qoymazdılar. Bu hal evə uğur gətirməzdi. Həmin külü Payız kəndində yaşlıların verdiyi məlumata görə, axar suya axıdardılar.

Bu çərşənbədə təsərrüfat sahələrində müəyyən işlərə başlanılır. Öncə aran bölgələrdə ağaclara qulluq edilir, heyvanlar örüş sahələrinə çıxarılır. Bir sözlə, istiliyin qorunması, istiliyin yenidən qayıdıb torpağa hopması, torpaqda istiliyin baş verməsi və nəhayət, əmək mövsümünün başlanması üçün torpağı məhsul əkininə hazırlıq ənənələri, ritualları bu çərşənbədə əksini tapır. Od çərşənbəsi, ümumilikdə, Günəş, od, atəş inamı ilə bağlı yaddaşlarda qalan bir çox nəğmə, etiqad, mərasim, bir sıra rəvayətlərin məcmusudur.

Ancaq bir məsələni də vurğulamaq lazımdır ki, Naxçıvanda odla bağlı adət və inanc sistemlərinə, od kultuna daha çox axır çərşənbədə rast gəlinir. Bu çərşənbədə tonqallar çatılır, atəşfəşanlıq edilir, tonqalın ətrafına toplaşan insanlar odun üzərindən atdanmaqla köhnə ildən qalan əzablarından, ağırlıqlarından sanki qurtularaq yeni ildə xoşbəxt, firavan həyat yaşayacaqlarına inanırlar; yandırılmış odun üstündən "ağırlığım, uğurluğum, dərdim, bəlam bu oda tökülsün", – deyib tullanarlar. İnama görə, odun üstündən tullanan şəxs ilboyu xəstələnməz, dərd, qəm ondan uzaq durar. Yandırılmış odun külünü götürüb bolluq, bərəkət rəmzi olaraq əkin sahələrinə səpərlər. Şər qüvvələrdən qorunmaq, onları qovmaq üçün ilaxır tonqalının külündən evin dörd küncünə qoyarlar. İndiki Kəngərli rayonunun bəzi kəndlərində odun külünün üstünü torpaqla örtərdilər ki, külək onu (odun külünə bərəkət kimi baxardılar) dağıtmasın.

Od xalqımızın and yeri, inanc yeri olmuşdur. "Od haqqı", "Ocaq haqqı", "Ocağa and olsun", "Ocağın nurlu olsun" demiş babalarımız, ağbirçək nənələrimiz. Düşməni qarğıyanda öncə ocağına üz tutmuş, "Ocağın sönsün", "Ocağın dağılsın" demişlər. Evə, ailəyə bədbəxtlik üz verəndə "Ocağı qaraldı", "Ocağı söndü" deyirlər. Bundan əlavə, naxələf adama "Baba ocağını kor qoydu" deyərlər. Elimizdə, obamızda qədim ibadət yerlərini də ocaq saymışlar. Bəzi ağsaqqallara "Ocaq kimi adam" demişlər ulularımız. Od Azərbaycanımızın yanan qəlbinə çevrilmişdir. Yurdumuzun adının da "Odlar yurdu" adlandırılması bundan qaynaqlanır.



Bir məsələni də xatırlatmaq istərdik ki, bəzən çərşənbələrdə, Novruzda tonqal qalamaq (xalq arasında odqalama) atəşpərəstliklə, zərdüştlüklə əlaqələndirilir. Qeyd edək ki, bəhs olunan bayramlarda tonqal qalamanın atəşpərəstliklə heç bir əlaqəsi yoxdur. Çünki atəşpərəstlər odu müqəddəs saymış, onun közünün dağılmasına imkan verməmişlər. Bundan əlavə, oda keşik çəkən döyüşçülər üzlərinə niqab keçirirmişlər ki, onların ağzından çıxan nəfəs oda toxunub onu murdarlamasın. Ancaq insanlar çərşənbələrdə və Novruzda odun üstündən tullanaraq "ağırlığım, uğurluğum, azarım-bezarım, dərdim-bəlam odlara düşsün" deyərlər. Odun külündən götürüb bəd ruhlardan qorunmaq üçün evin künclərinə tökərlər. Əgər tonqal qalamaq atəşpərəstliklə bağlı olsa idi, oda bu cür münasibət bəslənməzdi; dərd, qəm, azar-bezar odun üstünə tökülməzdi. Qədim insanlar tonqal yandırmanı (odqalamanı) qışın bütün qada-bəlasını özlərindən uzaqlaşdırmaq üçün edirmişlər. Xalq arasında belə bir inam var ki, odu insanlara Günəş bağışlayıb. Günəşin, odun rəmzi olaraq Novruz bayramında yumurtaların qırmızı rəngə boyadılması, səməninin ortasına qırmızı parça bağlanılması, Kosanın qırmızı paltar geyinməsi və sair kimi adətlərə əməl edilir. Göstərdiyimiz etnoqrafik materialların hər biri atəşpərəstlikdən öncə türklərin oda tapınması, Günəş kultuna inamı ilə daha çox səsləşir. Qədim türklər oda kult kimi tapınmışlar.

**Asəf ORUCOV**
***AMEA Naxçıvan Bölməsinin böyük elmi işçisi, dosent***

## Basketbol Federasiyasının hesabat yığıncağı keçirilib

***Naxçıvan Muxtar Respublikası Basketbol Federasiyasının hesabat yığıncağı keçirilib.***

Yığıncağı giriş sözü ilə federasiyanın sədri Mahir Əliyev açaraq qeyd edib ki, geridə qoyduğumuz ildə Basketbol Federasiyası tədbirlər planına uyğun olaraq, bu idman növünün muxtar respublikada kütləvi hal alması, gənclər arasında təbliğ olunması üçün müəyyən işlər görüb. Muxtar respublikanın Ordubad, Culfa, Babək, Şahbuz, Şərur, Sədərək rayonlarında və Naxçıvan şəhərində üç yaş qrupundan ibarət olmaqla, 9 oğlan qrupu fəaliyyət göstərir. Qeyd olunan qruplarda məşqlər aparmaq, lazımi nəticələr əldə etmək məqsədilə rayon və şəhər komandalarına məşqçi-müəllimlər təyin olunub, məşqçi-müəllimlər və idmançılar idman formaları və basketbol topları ilə təmin edilib. Hazırda fəaliyyət göstərən bu qruplarda 150-dən artıq idmançı basketbolla məşğul olur.



Basketbol Federasiyasının sədri fevralın 21-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti və qarşıda duran vəzifələr mövzusunda keçirilən müşavirədə federasiyanın qarşısına qoyulan vəzifələr və onların yerinə yetirilməsi üçün cari ildə görüləcək işlər barədə məlumat verib.

Sonra Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin Kütləvi bədən tərbiyəsi və idman şöbəsinin müdiri Taleh İbrahimov çıxış edərək ötən il nazirlik və Basketbol Federasiyasının birgə təşkil etdiyi tədbirlərdən danışıb.

Qeyd edək ki, muxtar respublikada basketbolun inkişafı, ən güclü basketbolçuları üzə çıxarmaq, basketbol üzrə muxtar respublika yığmasını müəyyənləşdirmək üçün cari ildən başlayaraq ilk dəfə basketbol üzrə kişilər arasında Naxçıvan Muxtar Respublika çempionatı keçiriləcək. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə birgə təşkil ediləcək çempionatın əsasnaməsinə əsasən, birincilik dairəvi üsulla iki mərhələdən ibarət olacaq. Çempionatın ilk dövrəsi martın 15-də başlayacaq və iyunun 8-nə kimi davam edəcək. Bundan sonra komandalar istirahətə yollanacaq və ikinci dövrəyə sentyabrın 27-də start veriləcək. Reqlamentə uyğun olaraq, çempionat dekabrın 27-də başa çatacaq və qalib müəyyənləşəcək. Naxçıvan Muxtar Respublikasının şəhər, rayon və klub komandalarından ibarət 16 yaşdan yuxarı və həkim müayinəsindən keçmiş oyunçuların dəvət olunacağı çempionatda komandaların tərkibi 12 basketbolçu, 1 məşqçi və 1 hakimdən ibarət olmalıdır. Həmçinin komandalar basketbol qaydalarına uyğun nömrələrlə (4-15) meydana çıxmalıdırlar.

## Fiziki imkanları məhdud uşaqlar bədii gimnastikaya cəlb edilir

***21 fevral 2015-ci il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisində bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti və qarşıda duran vəzifələrlə bağlı keçirilən müşavirədə verilən tapşırıqların icrası istiqamətində fiziki imkanları məhdud uşaqlar üçün bədii gimnastika bölməsi fəaliyyətə başlayıb.***

Məşqlərin ilk günündə uşaqların bu idman növünə marağı diqqətdən yayınmayıb. Azərbaycan Respublikasının idman ustası, məşqçi-müəllim Humay Qafarovanın rəhbərliyi ilə keçirilən ilk məşqdə 12 fiziki imkanları məhdud uşaq iştirak edib. Məşqçi-müəllim bizimlə söhbətində vurğuladı ki, bu qrupa müraciət edənlərin sayının çoxluğu səbəbindən qarşıdakı günlərdə daha bir qrupun



fəaliyyətə başlayacağı gözlənilir.

Qeyd edək ki, bədii gimnastika idman növü üçün xüsusi zal ayrılıb. Naxçıvan Muxtar Respublika Stadionunun inzabati binasında yerləşən zalda artıq 50-dən çox 3-11 yaşlı qızlar gimnastikanın bu növü ilə məşğul olurlar.

✍ **Ceyhun MƏMMƏDOV**

## Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi

*aşağıdakı obyektlərin tikintisi üzrə təkliflər sorğusu elan edir*

1. Naxçıvan şəhərində 720 şagird yerlik 3 nömrəli məktəbin tikintisi.
2. Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin inzibati binasının tikintisi.
3. Şərur rayonunun Kürçülü kəndində 234 şagird yerlik məktəbin yenidən qurulması.
4. Şərur rayonunun Axaməd kəndində 192 şagird yerlik məktəbin tikintisi.
5. Şərur şəhər 1008 şagird yerlik 2 nömrəli məktəbin yenidən qurulması.
6. Babək rayonunun Xalxal kəndində 144 şagird yerlik məktəbin tikintisi.
7. Babək rayonunun Xəlilli kəndində 192 şagird yerlik məktəbin tikintisi.
8. Culfa rayonunun Qızılca kəndində 120 şagird yerlik məktəbin tikintisi.
9. Culfa rayonunun Saltaq kəndində 252 şagird yerlik məktəbin tikintisi.
10. Culfa rayonunun Gal kəndində 96 şagird yerlik məktəbin tikintisi.
11. Ordubad rayonunun Gilançay kəndində 96 şagird yerlik məktəbin tikintisi.
12. Şahbuz rayonunun Daylaqlı kəndində 120 şagird yerlik məktəbin tikintisi.
13. Kəngərli rayonunun Yurdçu kəndində 252 şagird yerlik məktəbin yenidən qurulması.
14. Sədərək rayonunda Musiqi məktəbinin tikintisi.

**Təkliflər sorğusunun əsas şərtləri:**

- görüləcək işlərin minimum dəyəri və qısa vaxt əsas meyardır;
- iddiaçının analoji işlərdə təcrübəsi, işin təşkili (kadr potensialı və tikinti texnikası haqqında məlumat) və onların maliyyə vəziyyəti əsas götürülür;
- iddiaçılar sorğuda iştirak etmək üçün Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin aşağıda qeyd olunmuş hesabına 100 manat məbləğində iştirak haqqı keçirməlidirlər.

***Bankın rekvizitləri:***
*Kapital Bank Naxçıvan MR Baş İdarəsi*
*Bank kodu: 200015*
*VÖEN: 9900003611*
*Müxbir hesab:*
*AZ 37 NABZ 01350100000000001944*
*SWİT BİK: AIIBAZ2X*
***Komitənin rekvizitləri:***
*Hesablaşma hesabı:*
*AZ 84 AIIB 33040019443100257500*
*VÖEN: 0200005051*

İddiaçılar sorğuda iştirak etmək üçün Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsindən müvafiq sənədləri 5 mart 2015-ci il tarixədək ala bilərlər (Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 42).

Təkliflər sorğusu sənədlərinə aşağıdakı ardıcıllıqla göstərilən tarixlərdə baxılacaqdır:

1. Naxçıvan şəhərində 720 şagird yerlik 3 nömrəli məktəbin tikintisi: 11 mart 2015-ci il, saat $12^{00}$.
2. Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin inzibati binasının tikintisi: 11 mart 2015-ci il, saat $14^{00}$.
3. Şərur rayonunun Kürçülü kəndində 234 şagird yerlik məktəbin yenidən qurulması: 12 mart 2015-ci il, saat $12^{00}$.
4. Şərur rayonunun Axaməd kəndində 192 şagird yerlik məktəbin tikintisi: 12 mart 2015-ci il, saat $14^{00}$.
5. Şərur şəhər 1008 şagird yerlik 2 nömrəli məktəbin yenidən qurulması: 13 mart 2015-ci il, saat $12^{00}$.
6. Babək rayonunun Xalxal kəndində 144 şagird yerlik məktəbin tikintisi: 13 mart 2015-ci il, saat $14^{00}$.
7. Babək rayonunun Xəlilli kəndində 192 şagird yerlik məktəbin tikintisi: 16 mart 2015-ci il, saat $12^{00}$.
8. Culfa rayonunun Qızılca kəndində 120 şagird yerlik məktəbin tikintisi: 16 mart 2015-ci il, saat $14^{00}$.
9. Culfa rayonunun Saltaq kəndində 252 şagird yerlik məktəbin tikintisi: 17 mart 2015-ci il, saat $12^{00}$.
10. Culfa rayonunun Gal kəndində 96 şagird yerlik məktəbin tikintisi: 17 mart 2015-ci il, saat $14^{00}$.
11. Ordubad rayonunun Gilançay kəndində 96 şagird yerlik məktəbin tikintisi: 18 mart 2015-ci il, saat $14^{00}$.
12. Şahbuz rayonunun Daylaqlı kəndində 120 şagird yerlik məktəbin tikintisi: 18 mart 2015-ci il, saat $14^{00}$.
13. Kəngərli rayonunun Yurdçu kəndində 252 şagird yerlik məktəbin yenidən qurulması: 19 mart 2015-ci il, saat $14^{00}$.
14. Sədərək rayonunda Musiqi məktəbinin tikintisi: 19 mart 2015-ci il, saat $14^{00}$.

Təkliflər sorğusu ilə əlaqədar məlumat almaq üçün maraqlı olan təşkilatlar Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə müraciət edə bilərlər.

***Əlaqə telefonu: 545-47-34***

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 193